QANUN № 08 (382), 2026, s.154-161

Qarayev Samir Siyasət oğlu,
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı, polis polkovniki
Ünvan: Bakı şəhəri, Nigar Rəfibəyli küç.
E-mail: garayev.samir@gmail.com

UOT 343.1
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.1158

İNSAN ALVERİ CİNAYƏTLƏRİ ÜZRƏ CİNAYƏT TƏQİBİ ZAMANI UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİNİN BEYNƏLXALQ HÜQUQİ STANDARTLARI

Açar sözlər: *insan alveri, insan alverinin qurbanı olan uşaq, cinayət təqibi, beynəlxalq standartlar, Palermo protokolu, Uşaq hüquqları haqqında BMT Konvensiyası, İnsan alveri, fahişəlik və pornoqrafiya haqqında Fakultativ protokol, İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası və Lansarot Konvensiyası.*

Ключевые слова: *торговля людьми, дети-жертвы торговли людьми, права ребёнка, уголовное преследование, международные стандарты, Палермский протокол, Конвенция ООН о правах ребёнка, Факультативный протокол по торговле детьми, проституции и порнографии, Конвенция Совета Европы о противодействии торговле людьми и Лансаротская конвенция.*

Keywords: *human trafficking; child victims; children's rights; criminal proceedings; international legal standards; Palermo Protocol; UN Convention on the Rights of the Child; Optional Protocol on the Sale of Children, Child Prostitution and Child Pornography; Council of Europe Convention on Action against Trafficking in Human Beings; Lanzarote Convention; best interests of the child; child-friendly justice; victim protection; secondary victimisation; law enforcement; criminal investigation; child protection; human rights; Azerbaijan.*

Hər bir demokratik hüquqi dövlətin fəaliyyətində uşaqlarla bağlı strategiya böyük əhəmiyyət kəsb edir. Uşaqların normal mühitdə böyüdülməsi, onların sağlamlıq imkanlarının artırılması, uşaqların psixososial durumunun nəzarətdə saxlanılması, onların təhsilə cəlb edilməsi, potensiallarının qiymətləndirilməsi, sosial dəstək proqramlarının həyata keçirilməsi kimi tədbirlərlə sağlam gəncliyin yetişdirilməsi hər bir cəmiyyət üçün prioritet məsələlərdəndir.

Burada əsas istiqamətlərdən biri cinayətdən zərər çəkmiş uşaqların hüquqlarının tam və keyfiyyətli müdafiəsinin təmin edilməsi, onların yenidən cinayətə məruz qalmalarının qarşısının alınması sahəsində səmərəli mexanizmlərin yaradılmasıdır. Uşaqların fiziki və psixososial durumu, şəxsiyyətlərinin formalaşması mərhələsində olması onları cinayətlərə məruz qalmaqda həssas qrupa çevirmiş olur. Bu səbəbdən cinayətkarlar üçün uşaqlara qarşı cinayət törətmək və ya onları cinayətkar fəaliyyətə cəlb etmək daha asandır. Xüsusən va-

lideyn himayəsindən məhrum olmuş, müəyyən səbəblərə görə təhsildən yayınan, fiziki və psixi qüsurlara görə məhdud fəaliyyət qabiliyyətli uşaqlar cinayətkarların asan hədəfləridir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının 2010-cu il, 10 may tarixli Qanunu ilə təsdiq edilmiş "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyasının 23-cü maddəsinin 3-cü bəndində qeyd olunur: "Uşaq alveri qurbanı xüsusi mühafizə tədbirləri ilə onun mənafeyi nəzərə alınmaqla təmin olunmalıdır." [2]

Azərbaycan Respublikasının 2003-cü il, 13 may tarixli Qanunu ilə təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı» Konvensiyasının, onu tamamlayan «İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında Protokolun (Palermo protokolu, BMT Ali Məclisin 12 dekabr, 2000-ci il tarixli Qətnaməsi ilə qəbul edilmişdir) 10-cu maddəsinə qeyd olunur:

"Hər bir Tərəf insan alverinin qarşısının alınması və onunla mübarizə, uşaqlar da daxil olmaqla insan alveri qurbanlarının müəyyən edilməsi və onlara yardım göstərilməsi sahəsində müvafiq təlim keçmiş və ixtisaslaşmış şəxslərin öz səlahiyyətli orqanlarına təyin edilməsini təmin etməli və qadın və uşaq alveri qurbanlarının onların xüsusi vəziyyətini nəzərə alan prosedurla müəyyən edilməsi və lazım gəldikdə, onlara bu Konvensiyanın 14-cü maddəsinin müddəalarına əsasən ölkə ərazisində yaşayış icazəsi verilməsi üçün aidiyyəti orqanların bir-biri ilə və həmçinin əlaqədar yardımçı təşkilatlarla əməkdaşlıq etməsini təmin etməlidir.

Hər bir Tərəf, lazım gəldikdə, digər Tərəflər və əlaqədar yardımçı təşkilatlarla birgə əməkdaşlıq etməklə insan alveri qurbanlarının müəyyən olunması üçün vacib olan qanunvericilik və digər növ tədbirləri görməlidir. Əgər aidiyyəti səlahiyyətli orqanlarda hər hansı bir şəxsin insan alveri qurbanı olmasına əmin olmaq üçün əsaslar olarsa, o zaman hər bir Tərəf həmin şəxsin, bu Konvensiyanın 18-ci maddəsinə müvafiq olaraq həyata keçirilən insan alveri qurbanının müəyyənləşdirilməsi prosesi aidiyyəti orqanlar tərəfindən başa çatdırılmayana qədər öz ərazisindən çıxarılmamasını, habelə həmin şəxsə 12-ci maddənin 1-ci və 2-ci bəndlərində göstərilən qaydada yardım göstərilməsini təmin etməlidir.

İnsan alveri qurbanının yaşı məlum olmadıqda və onun uşaq ola biləcəyi ilə əlaqədar müəyyən əsaslar olduqda, onun uşaq olması ehtimal olunmalı və onun yaşı müəyyən olunanadək ona münasibətdə xüsusi mühafizə tədbirləri görülməlidir.

Müşayiət edilməyən hər hansı uşağın insan alveri qurbanı olması müəyyən edildiyi andan hər bir Tərəf aşağıdakı tədbirləri həyata keçirir:

a) uşağın, onun mənafeyinə uyğun şəkildə çıxış edəcək qəyyum, təşkilat və ya səlahiyyətli orqan tərəfindən təmsil olunmasını təmin etmək;

b) onun şəxsiyyətini və milli mənsubiyyətini müəyyənləşdirmək üçün zəruri addımlar atmaq;

c) uşağın mənafeyinə uyğun olduğu təqdirdə, onun ailəsinin olduğu yeri müəyyənləşdirmək üçün bütün lazımi tədbirləri görmək"[4].

Azərbaycan Respublikasının 2019-cu il, 22 oktyabr tarixli Qanunu ilə ratifikasiya edilmiş "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının (2007-ci il, 25 oktyabr tarixli, Lansarot Konvensiyası) 5-ci maddəsində uşaqlarla təmasda çalışan şəxslərin işə götürülməsi, təlimi və məlumatlılıq səviyyəsinin artırılması tələb edilir. Maddədə qeyd olunur:

"Hər bir Tərəf təhsil, səhiyyə, sosial müdafiə, məhkəmə və hüquq mühafizə sektorlarında və

idman, mədəniyyət və istirahət fəaliyyətləri sahələrində uşaqlarla müntəzəm təmasda olan şəxslər arasında uşaqların müdafiəsi və onların hüquqları barədə məlumatlılığı artırmaq üçün zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir.

Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, 1-ci hissədə göstərilən şəxslərin uşaqların cinsi istismarı və onlara qarşı cinsi zorakılıq, onları ifşa etmək vasitələri və 12-ci maddənin 1-ci hissəsində nəzərdə tutulmuş imkan barədə kifayət qədər biliyə malik olması təmin edilsin."

Qeyd olunan Konvensiya istintaq, cinayət təqibi və prosessual hüquq normaları ilə bağlı iştirakçı dövlətin üzərinə vəzifələr qoyur. Konvensiyanın 30-cu maddəsində qeyd edilir:

"Hər bir Tərəf zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir ki, istintaq və cinayət təqibinin uşağın ən yüksək maraqları naminə və onun hüquqlarına riayət etməklə aparılması təmin edilsin.

Hər bir Tərəf qurbanlara müdafiə yanaşmasını qəbul edir ki, istintaq və cinayət təqibi nəticəsində uşağın keçirdiyi sarsıntı ağırlaşmasın və zəruri hallarda, cinayət hüquqi tədbirlərin tətbiqindən sonra yardım göstərilsin.

Hər bir Tərəf istintaq və cinayət təqibinin prioritet surətdə və heç bir əsassız ləngitmə olmadan aparılmasını təmin edir.

Hər bir Tərəf bu fəsilə əsasən tətbiq edilən tədbirlərin "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsinə müvafiq olaraq, müdafiə hüquqlarına və ədalətli və qərəzsiz məhkəmə araşdırılmasına dair tələblərə xələl gətirmədiyini təmin edir.

Hər bir Tərəf öz qanunvericiliyinin əsas prinsiplərinə müvafiq olaraq zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı, zəruri hallarda gizli əməliyyat-axtarış tədbirlərinə yol verməklə səmərəli istintaqın və cinayət təqibinin keçirilməsi təmin edilsin;

İstintaq bölmələrinə və ya xidmətlərinə 20-ci maddəyə uyğun olaraq müəyyən edilmiş cinayətlərin qurbanlarını, o cümlədən informasiya və kommunikasiya texnologiyaları vasitəsilə ötürülən, yaxud təqdim edilən fotoşəkillər və ya audiovizual çəkilişlər kimi uşaq pornoqrafiyası materialını təhlil etməklə müəyyən etmək səlahiyyəti verilsin"[3].

Konvensiyanın 31-ci maddəsi insan alveri cinayətlərində cinayət təqibi zamanı ümumi müdafiə tədbirləri üzrə öhdəliklər müəyyən edir. Belə ki;

"Hər bir Tərəf istintaq və cinayət təqibinin bütün mərhələlərində qurbanların hüquq və maraqlarının, o cümlədən onların şahid kimi xüsusi ehtiyaclarının, xüsusilə aşağıdakılar vasitəsilə müdafiəsi üçün zəruri qanunvericilik və digər tədbirləri həyata keçirir:

a) onlara öz hüquqları və onlar üçün mümkün olan xidmətlər, habelə bu cür məlumat almaqdan imtina etmədiyi halda, şikayətləri ilə bağlı görülən tədbirlər, ittihamlar, ümumiyyətlə istintaq və cinayət təqibinin gedişatı, habelə onların bu məsələdə rolu və işin nəticələri barədə məlumat verilməsi;

b) ən azı qurbanların və onların ailələrinin təhlükəyə məruz qala biləcəkləri hallarda onlara cinayət məsuliyyətinə cəlb edilmiş və ya məhkum edilmiş şəxsin müvəqqəti və ya yekun olaraq azad edilməsi barədə zəruri hallarda məlumat verilməsi;

c) qanunvericiliyin prosessual normalarına uyğun qaydada onlar üçün ifadə vermək, sübutlar təqdim etmək, habelə öz mövqeyinin, ehtiyaclarının və fikirlərinin bilavasitə

və ya vasitəçinin köməyilə nəzərə alınması vasitələrini seçmək imkanının yaradılması;

d) onların hüquq və mənafelərinin lazımi qaydada təqdim edilməsi və nəzərə alınması üçün onlara müvafiq yardım xidmətlərinin göstərilməsi;

e) onların şəxsi həyatının, şəxsiyyətinin və təsvirlərinin qorunması, habelə onların müəyyən olunmasına gətirib çıxara biləcək hər hansı məlumatın yayılmasının qarşısını almaq məqsədilə öz qanunvericiliyinə müvafiq olaraq tədbirlər həyata keçirməklə;

f) onların, habelə ailələrinin və onların tərəfindən çıxış edən şahidlərin təqib, qisasalma və təkrarən qurbana çevrilmə kimi təhlükələrdən qorunması;

g) səlahiyyətli orqanlar tərəfindən uşağın ən yüksək maraqlan üçün başqa qaydanın müəyyən edilməsi, yaxud istintaq və ya cinayət təqibi üçün belə təmasın tələb olunması hallan istisna edilməklə, məhkəmə və hüquq mühafizə orqanlarının binalarında qurbanlarla cinayətkarlar arasında təmasın olmamasının təmin edilməsi.

Hər bir Tərəf qurbanların səlahiyyətli orqanlarla ilkin təmasından başlayaraq onlar üçün müvafiq məhkəmə və inzibati proses barədə məlumatın mümkün olmasını təmin edir.

Hər bir Tərəf qurbanın qanunvericiliyə müvafiq olaraq cinayət prosesində iştirak etmək hüququna malik olduğu, lakin valideyn məsuliyyətini daşıyanların qurbanla maraqların toqquşmasına görə belə prosesdə uşağı təmsil etmək hüququndan məhrum edildiyi halda məhkəmə orqanlarına qurban üçün qanuni nümayəndəni təyin etmək imkanını təmin edir.

Hər bir Tərəf qruplara, fondlara, cəmiyyətlərə, yaxud hökumət və ya qeyri-hökumət təşkilatlarına bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı cinayət təqibi zamanı, qurbanların razılığı ilə, onlara yardım etmək və ya dəstək vermək imkanını öz qanunvericiliyində nəzərdə tutulmuş şərtlərə uyğun olaraq qanunvericilik və ya digər tədbirlər vasitəsilə təmin edir.

Hər bir Tərəf bu maddənin müddəalarına uyğun olaraq qurbanlara verilən məlumatların onların yaşına və kamillik dövrünə uyğun qaydada və onların başa düşdükləri dildə verilməsini təmin edir [3].

Qeyd olunan Konvensiyanın 32-ci maddəsində deyilir:

“Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı istintaqın və ya cinayət təqibinin qurbanın irəli sürdüyü şikayət və ya ittihamdan asılı olmaması, habelə qurban hətta öz ərizəsini geri götürdüyü halda icraatın davam edə biləcəyi təmin edilsin”[3].

Konvensiyanın 33-cü maddəsinə əsasən, hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, 18-ci maddəyə, 19-cu maddənin 1-ci hissəsinin “a” və “b” bəndlərinə və 21-ci maddənin 1-ci hissəsinin “a” bəndinə uyğun olaraq müəyyən edilmiş cinayətlərlə bağlı cinayət məsuliyyətinə cəlbetmə müddətinin qurbanın yetkinlik yaşına çatmasından sonra icraatın səmərəli qaydada başlanmasına imkan yaradan müddətdə, habelə cinayət əməlinin ağırlığına mütənasib müddətdə davam etməsi təmin edilsin.

Bununla yanaşı Konvensiyanın Hər bir Tərəf zəruri tədbirlər həyata keçirir ki, istintaqı həyata keçirən şəxslər, bölmələr və ya xidmətlərin uşaqların cinsi istismarı və ya onlara qarşı cinsi zorakılıqla mübarizə sahəsində ixtisaslaşmış və ya həmin şəxslərin bu məqsədlə təlim keçmiş olması təmin edilsin. Bu bölmələr və ya xidmətlər münasib maliyyə resursları ilə təmin edilir.

Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, qurbanın həqiqi yaşı ilə bağlı qeyri-müəyyənliyin cinayət işinin başlanmasına mane olmadığı təmin edilsin"[3] .

Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının 34-cü maddəsində qeyd edilir:

"İştirakçı dövlətlər uşağı seksual istismarın və seksual yola çəkmənin bütün formalarından müdafiə etməyi öhdələrinə götürürlər. Bu məqsədlə iştirakçı dövlətlər aşağıdakıların qarşısını almaq üçün milli, ikitərəfli və çoxtərəfli səviyyələrdə bütün lazımi tədbirləri görürlər:

a) uşağın hər hansı qanunsuz seksual fəaliyyətə sövq və ya məcbur edilməsi; b) istismar məqsədilə uşaqlardan fahişəlikdə və ya digər qanunsuz seksual praktikada istifadə edilməsi;

c) istismar məqsədilə uşaqlardan pornoqrafiyada və pornoqrafik materiallarda istifadə edilməsi" [5].

Azərbaycan Respublikasının 2002-ci il, 2 aprel tarixli Qanunu ilə təsdiq edilmiş «Uşaq hüquqları haqqında» BMT Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakultativ Protokolun 8-ci maddəsində qeyd olunur:

"1. İştirakçı dövlətlər, bu Protokolla qadağan edilən praktikanın qurbanı olmuş uşaqların hüquq və maraqlarının müdafiəsi üçün, cinayət mühakimə icraatının bütün mərhələlərində, xüsusən aşağıdakı yollarla lazımi tədbirlər görəcəklər:

(a) zərər çəkmiş uşaqların müdafiəsizliyinin etiraf edilməsi və onların xüsusi ehtiyaclarının, o cümlədən onların şahid kimi xüsusi ehtiyaclarının tanınması prosedurlarının uyğunlaşdırılması;

(b) zərər çəkmiş uşaqlara onların hüquqları, rolu və onların işləri üzrə məhkəmə icraatının məzmunu, müddəti və gedişi barədə məlumat verilməsi;

(c) şəxsi maraqlarına toxunulan hallarda, zərər çəkmiş uşaqların fikirlərinin, ehtiyaclarının və problemlərinin məhkəmə icraatı zamanı milli qanunvericiliyin prosessual normalarına uyğun olaraq təmsil edilməsi və baxılmasının təmin edilməsi;

(d) uşaqlara məhkəmə icraatının bütün mərhələlərində lazımi dəstək verilməsi üçün xidmət göstərilməsi;

(e) lazımi hallarda, zərər çəkmiş uşaqların şəxsi həyatının və şəxsiyyətinin qorunması və zərər çəkmiş uşağın şəxsiyyətinin müəyyən edilməsinə gətirib çıxara biləcək məlumatın arzuedilməz yayılmasının qarşısını almaq məqsədi ilə, milli qanunvericiliyə müvafiq tədbirlərin görülməsi;

(f) lazımi hallarda, zərər çəkmiş uşaqların, eləcə də onların ailələrinin və onlar adından çıxış edən şahidlərin hədə-qorxu və qisasdan müdafiəsinin təmin edilməsi;

(g) zərər çəkmiş uşaqlara kompensasiya verilməsinə dair işlər üzrə qərarların çıxarılmasının, sərəncam və qətnamələrin icrasının həddən artıq ləngidilməsinə yol verilməməsi.

2. İştirakçı dövlətlər zərərçəkənin həqiqi yaşına münasibətdə şübhə olduğu halda cinayət təhqiqatının, o cümlədən zərərçəkənin yaşının müəyyənləşdirilməsi məqsədilə təhqiqatın başlanmasına mane olunmamasını təmin edirlər.

3. İştirakçı dövlətlər bu Protokolda nəzərdə tutulan cinayətlərin qurbanı olmuş uşaqlarla rəftar zamanı, cinayət mühakimə icraatı sistemində uşağın ən ümdə maraqlarının qorunmasına birinci növbədə diqqət yetirilməsini təmin edirlər.

4. İştirakçı dövlətlər bu Protokola uyğun olaraq qadağan edilmiş cinayətlərin qurbanları olan uşaqlarla işləyən şəxslərin lazımi hazırlıq,

xüsusən hüquqi və psixoloji hazırlıq keçmələrinin təmin edilməsi üçün tədbirlər görürlər.

5. İştirakçı dövlətlər lazımi hallarda bu cür cinayətlərin qarşısını alan fəaliyyətlə və/və ya bu cür cinayətlərin qurbanlarının müdafiəsi və reabilitasiyası ilə məşğul olan şəxslərin və/və ya təşkilatların təhlükəsizliyi və toxunulmazlığının təmin edilməsi üçün tədbirlər görürlər."[6]

Azərbaycan Respublikasının 2011-ci il, 11 may tarixli Qanunu ilə təsdiq edilmiş Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası"nda da (2005-ci il, 16 may, Varşava) insan alverinə məruz qalmış uşaqlarla bağlı cinayət təqibinin aparılması xüsusatları əksini tapmışdır.

Belə ki, Konvensiyanın 28-ci maddəsində qeyd olunur: "Hər bir Tərəf cinayətkarların istintaqı və mühakimə olunması zamanı, eləcə də ondan sonra aşağıda göstərilənlərin qisas və ya hədə-qorxu hallarından səmərəli və lazımi müdafiəsinin təmin olunması üçün vacib olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir"[2] .

Qeyd olunan beynəlxalq sənədlər cinayət təqibi zamanı cinayətdən zərər çəkmiş uşaqlarla davranışın standartlarını müəyyən edir. Azərbaycan Respublikası tərəfindən bu beynəlxalq sənədlərin ratifikasiya edilməsi ölkəmizdə də bu istiqamətdə vahid standartların hazırlanmasını tələb edir. Düzdür cinayət təqibini həyata keçirən orqanlar bununla bağlı standartlar hazırlamışdır. Belə ki, Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2022-ci ildə «Hüquq-mühafizə orqanlarının və insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən digər dövlət qurumlarının əməkdaşları tərəfindən insan alverindən zərər çəkmiş və ya zərər çəkməsi ehtimal olunan uşaqlarla ünsiyyətin ümumi standartları, həmçinin müvafiq işlərin və zərər çəkmiş uşaqların aidiyyəti üzrə təqdim edilməsi prosedurları" adlı metodik vəsait hazırlanmışdır. Metodik vəsait Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 iyul tarixli 2173 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı»nın icrası ilə əlaqədar tərtib olunmuşdur [1] .

Metodik vəsaitdə insan alveri qurbanları olan uşaqlara məxsus göstəricilərin qiymətləndirilməsi, insan alverinin qurbanı olan uşaqlarla ünsiyyətə hazırlıq və ünsiyyət zamanı tələb olunan şərtlər, insan alveri qurbanı olan uşaqlarla ünsiyyətə başlamaq, bu uşaqlarla ünsiyyət zamanı qiymətləndirmə üçün verilən suallar, uşaqların və müvafiq sənədlərin təqdim edilməsi məsələləri əksini tapmışdır.

Bununla yanaşı, "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın 5.3.15-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Baş Prokurorluq tərəfindən "Prokurorluq, polis və digər hüquq-mühafizə orqanlarının əməkdaşları üçün yetkinlik yaşına çatmayanlarla davranışa dair" metodiki vəsait hazırlanmışdır. [8] Metodik vəsaitdə bu sahədə qanunvericiliyin təhlili, beynəlxalq və yerli sənədlər, təcrübə və ölkədə mövcud qanunvericiliyin öyrənilməsi, yetkinlik yaşına çatmayan şəxsin və onun ailəsinin sosial psixoloji vəziyyətinin qiymətləndirilməsi prinsipləri, uşaqların yaş xüsusiyyətləri, müsahibə və dindirilmə kimi məsələlər izah edilmişdir.

Qeyd olunan metodik vəsaitlər tövsiyə xarakterlidir. Lakin məsələnin həssaslığı nəzərə alınmaqla cinayət təqibi zamanı zərər çəkmiş uşaqlarla davranışın standartlarına dair vahid normativ sənədin hazırlanması və bu sahədə fəaliyyət göstərən orqanlar tərəfindən rəhbər tutulması zəruridir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020─2024-cü illər üçün Milli Fəaliyyət Planı" Azərbaycan RespublikasıPrezidentinin 2020-ci il, 22 iyul tarixli 2173 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
2. Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2010-cu il, 10 may tarixli, 1002-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
3. Avropa Şurasının "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Konvensiyası Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının 2019-cu il, 22 oktyabr tarixli,1681-VQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
4. Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyası / Azərbaycan Respublikasının 2003-cü il13 may tarixli 435-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
5. Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında" Konvensiyası/ Azərbaycan Respublikasının 1992-ci il, 21 iyun tarixli Qanunu ilə təsdiq edilmişdir.
6. «Uşaq hüquqları haqqında» BMT Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakultativ Protokolu Azərbaycan Respublikasının 2002-ci il, 2 aprel tarixli 286-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
7. «Uşaq hüquqları haqqında» BMT Konvensiyasının "Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokolu", Azərbaycan Respublikasının 2002-ci il, 2 aprel tarixli 286-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
8. "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"/ Azərbaycan Respublikası Prezidentinin 2020-ci il, 27 noyabr tarixli, 2306 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Гараев Самир Сиясат оглу,
сотрудник Министерства внутренних дел
Азербайджанской Республики,
полковник полиции

МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ СТАНДАРТЫ ЗАЩИТЫ ПРАВ ДЕТЕЙ В ХОДЕ УГОЛОВНОГО ПРЕСЛЕДОВАНИЯ ЗА ПРЕСТУПЛЕНИЯ, СВЯЗАННЫЕ С ТОРГОВЛЕЙ ЛЮДЬМИ

РЕЗЮМЕ

Статья посвящена международно-правовым стандартам защиты детей в уголовном производстве по делам о торговле людьми. Обосновывается, что дети являются особенно уязвимыми потерпевшими, поэтому процесс должен вестись с учётом их наилучших интересов. Анализируются ключевые акты, включая Палермский протокол, Конвенцию ООН о правах ребёнка, Факультативный протокол по торговле детьми, проституции и порнографии, Конвенцию Совета Европы о противодействии торговле людьми и Лансаротскую конвенцию. Эти документы требуют выявления и защиты детей-жертв, специальной подготовки сотрудников, защиты конфиденциальности, предотвращения повторной виктимизации и предоставления правовой, психологической и социальной помощи на всех стадиях процесса. Рассматривается практика Азербайджана по внедрению этих стандартов через национальные законы и методические рекомендации. Делается вывод, что принятие единого национального стандарта усилит защиту детей и обеспечит более последовательное выполнение международных обязательств.

Garayev Samir Siyasat,
Officer, Ministry of Internal Affairs of Republic
of Azerbaijan, Police colonel

INTERNATIONAL LEGAL STANDARDS FOR THE PROTECTION OF CHILDREN'S RIGHTS DURING CRIMINAL PROSECUTION FOR HUMAN TRAFFICKING OFFENSES

SUMMARY

The article examines international legal standards for protecting children's rights during criminal proceedings in human trafficking cases. It emphasises that children are particularly vulnerable victims and that investigations and criminal proceedings must be conducted with due regard to the best interests of the child. The article analyses key international instruments, including the Palermo Protocol, the UN Convention on the Rights of the Child, the Optional Protocol on the Sale of Children, Child Prostitution and Child Pornography, the Council of Europe Convention on Action against Trafficking in Human Beings, and the Lanzarote Convention. It highlights the importance of identifying and protecting child victims, specialised training for law-enforcement personnel, protection of privacy, prevention of re-victimisation, and access to legal, psychological and social assistance. The article also examines Azerbaijan's implementation of these standards through national legislation and methodological guidelines. It concludes that the adoption of a unified national standard for dealing with child victims during criminal proceedings would strengthen their protection and ensure more consistent implementation of international obligations.

Redaksiyaya daxilolma tarixi: 07.08.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 10.08. 2026
Çapa qəbul olunma tarixi: 18.08.2026